# Elçibyin oğlu AXCP v Müsavata qadağa qoydu

Yazan
18.01.14 15:54 -




Azərbaycanın mərhum eks-prezidenti Əbülfəz Elçibəyin oğlu Ərturqut Əliyev AXCP və Müsavat Partiyasının funksionerlərinə müraciət edib.

Modern.az saytına açıqlamasında Ərturqut Əliyev hazırda bir-biri ilə qalmaqal yaşayan tərəfləri Elçibəyin adından istifadə etməməyə çağırıb.

“Heç bir siyasi partiya öz işlərinə görə mənim atamın adını çəkməsin. Sizin sayt vasitəsilə onlara səslənirəm ki, bir-birlərinə ünvanladıqları ittihamlarda Əbülfəz Elçibəyin adından istifadə etməsinlər.

Atamın ruhunu sakit buraxsınlar!”-deyə Ərturqut Əliyev sərt şəkildə bəyanat verib.

O qeyd edib ki, son günlər AXCP və Müsavat Partiyası arasında yaşanan qalmaqalda mərhum atasının adının bu formada hallandırılmasının əleyhinədir.

Xatırladaq ki, Müsavat Partiyasının Milli Şuradan çıxmasından sonra AXCP ilə bu siyasi qurum arasında başlayan qalmaqal səngimək bilmir. Tərəflər bir-birini qarşılıqlı ittiham edir və arqumentlərini bəzən keçmiş mərhum prezident Əbülfəz Elçibəy üzərində irəli sürürlər. Bu qalmaqalın iştirakçıları vaxtilə “Azadlıq” və “Yeni Müsavat” qəzetlərində Əbülfəz Elçibəy əleyhinə dərc edilən yazıları da üzə çıxarıb sosial şəbəkələrdə yayırlar...